kaspi.-2016.-17-19 sentyabr.-S.24.

# Qaçış

hekayə



Ambrose Bierce



Ceyms Burne Vorson, İngiltərədə, Uokşirdə - Leaminqtonda yaşayırdı. O, çəkməçi idi. Uokşirinin qurtaracağında onun özünün bir çəkməçi budkası vardı. Öz sinfinə məxsus bəzi kişilər kimi içkiyə meyil etsə də hamı onu vicdanlı, zəhmətkeş bir insan kimi tanıyırdı. İçki içdiyi vaxtlarda o, ağlına gələn şeydən mərc gələrdi. Bir dəfə də içdiyi vaxtlarda o əla qaçdığını dedi. Bir nəfərlə kiçik bir suvenirdən mərcə gəldilər ki, o, Koventiyə qədər qaçıb ordan da geri qayıtsın qaça-qaça. Təxminən qırx mildən çox yol. Bu hadisə 1873-cü il sentyabrın 3-də baş vermişdi. O, mərc gələn kimi qaçmağa başladı. Onunla mərc gələn adam (onun adını heç kim xatırlamır indi) paltarları qutu yolla təmizləyən Bartham Vayz və fotoqraf Hamerson Burnslə birlikdə furqona minib onun arxasıyca yola düzəldilər.

Vorson bir neçə mil məsafəni çox yaxşı qaçdı, asta-asta, tövşümədən. Doğrudan da, onun qaçmağa gücü vardı və bu gücünü qüvvətləndirmək üçün lazımınca içmişdi də. Arabada onun arxasınca gələn üç nəfər ondan çox da geridə deyildilər, hərdən onu həvəsləndirən sözlər qışqırıb deyirdilər.

Vorsondan bir kilometr arxada, arabada gələn üç nəfər qəflətən onun büdrədiyini gördülər. O başıüstə aşdı, dəhşətli səs çıxardı və yox oldu! Yox, o yerə düşmədi, o elə başıüstə aşarkən havada yox oldu. Torpağa dəyməmiş, heç izi-tozu da qalmadı. Üç nəfər də yolun ortasında boş-boş dayanmağın mənasız olduğunu görüb Leanminqtona qayıtdılar. Bu qəribə xəbəri hamıya söylədilər, bir neçə gün sonra onların üçünü də həbs etdilər. Məsələ bundadır ki, bu üç nəfər çox yaxşı hörmət qazanmışdı, adamlar onları yalançı kimi tanımırdı. Həm də hadisə baş verən vaxt onlar içkili olmamışdı. Onların yalan dediyini sübut edən dəlillər də tapılmadı. Beləliklə də, bu qeyri-adı hadisə bütün İngiltərəyə yayıldı. Müxtəlif ictimai fikir formalaşdı. Bəziləri deyirdi ki, bu hadisə normal insanın başına gələn ən təəccüblü hadisədir. Əgər bu üç nəfər nəyisə gizlədiblərsə də bunu gizlətməyin özü də heç vaxt heç kimin ağlına gəlməyən səbəblərə görədir.